AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ 1930

**Təsdiq edirəm** ________________________

**“Maliyyə və audit”** kafedrasının müdiri
i.e.d., prof.Əvəz Ələkbərov
*12 sentyabr 2024-cü il*

**“Büdcə sistemi” fənni üzrə işçi tədris proqramı**

(Sillabus)

**I.Fənn haqqinda məlumat**

| | |
|---|---|
| Fənnin kodu: | 00207 |
| Fənnin növü: | Seçmə |
| Tədris ili: | 2024/2025 |
| Fənnin tədris semestri: | Payız |
| Fakultə | Maliyyə və mühasibat |
| Qrup | DM-24/1, DM-24/2 |
| Kafedra | Maliyyə və audit |
| Tədris yükü | 30/15 |
| Kredit sayi | 4 |

**II.müəllim haqqında məlumat**

| | |
|---|---|
| Fənni tədris edən müəllim: | **i.e.d.,prof.Ə.Ə.Ələkbərov**<br>**i.e.n.,dos.T.T.Qurbanova** |
| E-mail ünvani | avaz.alakbarov@unec.edu.az<br>tunzala_gurbanova@unec.edu.az |
| İş telefonu: | 0(12)494004, 0(12)4925831 |
| **Tələbələr üçün qəbul vaxtlari** | I,II,III günlər |

**III. Fənnin təsviri:**

Büdcənin sosial-iqtisadi mahiyyəti, rolu, funksiyaları, büdcə sistemi və büdcə quruluşu, dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının büdcə huquqları, büdcələrarası münasibətlər, gəlirlərin və xərclərin büdcə səviyyələri arasında bölgüsü, büdcə təsnifatı, büdcənin gəlir və xərc sistemi, büdcədən maliyyələşən idarə, müəssisə və təşkilatların xərclərinin planlaşdırılması və maliyyəşdirilməsinin əsasları, təhsil, səhiyyə, sosial sığorta və sosial təminat xərcləri, idarəetmə və müdafiə orqanların saxlanması xərclərinin planlaşdırılması və maliyyələşdirilməsi qaydaları öz əksini tapmışdır. Burada həmçinin büdcəkənar dövlət fondlarının, məqsədli büdcə fondlarının formalaşması və istifadəsi, büdcə prosesinin təşkili əsasları və büdcə prosesinin təşkili üzərində maliyyə nəzarətinin təşkili formaları və metodları və s.əks olunmuşdur.

**IV. Fənnin məqsədi və vəzifələri:**

Azərbaycan Respublikasının büdcə sisteminin təşəkkülü və inkişafı, dövlətin funksiyaları və vəzifələrinin həyata keçirilməsində, ölkənin sosial-iqtisadi inkişafında büdcənin rolu, büdcələrarası münasibətlər, gəlirlərin və xərclərin büdcə səviyyələri arasında bölgüsü, büdcə təsnifatın məzmunu və əhəmiyyəti, büdcədən maliyyələşən idarə, müəssisə və təşkilatların xərclərinin planlaşdırılması və maliyyələşdirilməsinin əsasları, büdcə prosesinin təşkili və büdcənin icrası üzərində maliyyə nəzərətinin həyata keçirilməsi və bu barədə tələbələrə dərin və hərtərəfli biliklərin verilməsi və bu sahədə onlara əməli vərdişlərin öyrədilməsidir.

**V. Öyrənmənin nəticələri:**

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- büdcənin mahiyyəti və sosial-iqtisadi rolu
- büdcə prosesi və onun təşkili
- büdcə gəlirləri və xərclərinin formalaşdırılması və istifadəsi

**Bacarmalıdırlar:**

- büdcə münasibətlərinin dəyərləndirilməsi
- büdcənin proqnozlaşdırılması

- büdcənin icrası və ona nəzarətin təşkili

**VI. Fənnin mühazirə mövzuları**

Fənn 15 mühazirə mövzusundan ibarətdir.

Mövzu 1:Büdcənin sosial-iqtisadi mahiyyəti və funksiyaları

Mövzu 2:Büdcə quruluşu

Mövzu 3. Büdcə sistemi

Mövzu 4:Büdcələrarası münasibətlər

Mövzu 5: Büdcə təsnifatı.

Mövzu 6: Büdcə gəlirləri

Mövzu 7: Büdcə təşkilatlarının xərclərinin planlaşdırılması və maliyyələşdirilməsinin əsasları

Mövzu 8: Təhsil xərclərinin planlaşdırılması və maliyyələşdirilməsi

Mövzu 9: Səhiyyə xərclərinin planlaşdırılması və maliyyələşdirilməsi

Mövzu 10: Sosial sığorta və sosial təminat xərcləri

Mövzu 11 Dövlətin idarəetmə və müdafiə xərcləri.

Mövzu 12: Dövlət büdcədənkənar fondları və məqsədli büdcə fondları

Mövzu 13: Büdcə prosesinin təşkili

Mövzu 14: Büdcənin icrasının təşkili

Mövzu 15: Büdcənin icrasına maliyyə nəzarəti

**VII. Prerekvizitlər**

yoxdur

**VIII. Fənnin tədris metodologiyası**

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şeklində layihələrin aparılması, kicik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse və yaxud sərbəst işlərin yazılmasıvə test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli ədəbiyyatdan, habelə beynəlxalq və yerli mətbuatdan (internet resurslarından) göturulmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzkirasinə və məntiqi nəticələr

çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalasdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edecəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) qiraət materialları ilə tanış olmalıdırlar.

**IX. Əsas dərslik və ədəbiyyat**


1. Ə.Ə.Ələkbərov "Sosial-iqtisadi inkişafının maliyyə-büdcə parametrlərinin tənzimlənməsi". Bakı-2007. Fəsil I, II, III,VIII
2. Bədəlov Ş.Ş.,Məhərrəmov R.B., Qurbanov F.Ə., "Büdcə sistemi" dərslik, Bakı-2003 Bölmə I.,Fəsil I, səh. 11, Bölmə I, Fəsil 1, səh.15, Fəsil II, səh 29, Fəsil III, səh40-50
3. Novruzov N.A., İbrahimov Ə.İ., "Büdcə sistemi" dərslik, Bakı-2012
4. Вахрин П.И. Бюджетная система Российской Федерации. Учебник. Москва-2008
5. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı 1995
6. "Büdcə sistemi haqqında" AR Qanunu, Bakı,02.07.2002 (sonrakı dəyişiklik və əlavələrlə)
7. Cari il üzrə dövlət büdcəsi haqqında AR Qanunu
8. Hesabat ili üzrə dövlət büdcəsinin icrası haqqında AR. Qanunu
9. Növbəti il üzrə dövlət büdcəsi haqqında AR. Qanunu
10. Azərbaycan Respublikasının Vergi Məcəlləsi, Bakı-2019
11. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, Bakı,1997 (sonrakı dəyişiklik və əlavələrlə)
12. Dövlət rüsumu haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı, 4 dekabr 2001-ci il (sonrakı dəyişiklik və əlavələrlə)
13. Sosial sıgorta haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı,18.02.1997 (sonrakı dəyişiklik və əlavələrlə)
14. Azərbaycan Respublikasının Vahid büdcə təsnifatı, Bakı 2004 (sonrakı dəyişiklik və əlavələrlə)
15. Dövlət büdcəsinin tərtibi və icrası qaydaları haqqında ARNK Qərarı, Bakı, 24.05.2004

Hər bir mövzu üzrə müəllimin mühazirə mətnləri və təqdimatları elektron-kabinetə yerləşdirilir. Hər bir mövzu ilə bağlı müəllim əlavə olaraq xüsusi ədəbiyyat təklif edə bilər.

## X. Fənnin mühazirə mətnləri

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqları, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.vu.aseu.az) yerləşdirilir.

## XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1. | Büdcənin sosial-iqtisadi mahiyyəti və funksiyaları | Mövzunu öyrənməklə büdcə münasibətlərinin yaranması və inkişafı, büdcənin sosial iqtisadi mahiyyəti, dövlətin öz funksiyalarını yerinə yetirməkdə oynadığı rolu, bir iqtisadi kateqoriya kimi onun funksiyaları, müasir dövrdə dövlət büdcəsinin məqsəd və vəzifələri haqqında ətraflı bilik əldə ediləcəkdir. | Bədəlov Ş.Ş., Məhərrəmov R.B., Qurbanov F.Ə., "Büdcə sistemi" dərslik, Bakı-2003 I fəsil Novruzov N.A., İbrahimov Ə.İ., "Büdcə sistemi" dərslik, Bakı-2012 I fəsil |
| 2. | Büdcə quruluşu. Büdcə sistemi | Bu mövzunu öyrənərkən müxtəlif tipli dövlətlərdə büdcə quruculuğunun əsasları,Azərbaycan Respublikasının büdcə sistemi, onun formalaşması mərhələləri, təşkili prinsipləri və tənzimlənməsi metod və alətləri ilə tanış olacaq və zəruri bilgilər əldə ediləcəkdir | Novruzov N.A., İbrahimov Ə.İ., "Büdcə sistemi" dərslik, Bakı-2012 II fəsil |
| 3. | Büdcə hüququ | Bu mövzuda büdcə hüququ haqqında, Azərbaycan Respublikasında büdcə hüququnun əsasında dayanan qanunvericilik aktları, dövlət hakimiyyəti və icra hakimiyyəti orqanlarının, yerli özünüidarəetmə orqanlarının büdcə hüquqları, büdcə normaları haqqında zəruri bilgilər əldə ediləcək | Novruzov N.A., İbrahimov Ə.İ., "Büdcə sistemi" dərslik, Bakı-2012 III fəsil |
| 4 | Büdcələrarası münasibətlər | Büdcələrarası münasibətlərin mahiyyəti və qurulması prinsiplərini, onun hüquqi əsaslarını, gəlirlərin müxtəlif səviyyəli büdcələr arasında bölüşdürülməsi qaydalarını, həmçinin xərclərin büdcə həlqələri | Ə.Ə.Ələkbərov "Sosial-iqtisadi inkişafının maliyyə-büdcə parametrlərinin tənzimlənməsi". Bakı-2007. Səh 213-250 |

| | | | |
|---|---|---|---|
| | | arasında bölüşdürülməsi qaydaları hərtərəfli şərh ediləcək | |
| 5 | Büdcə təsnifatı | Bu mövzuda büdcə münasibətlərinin daha əlaqəli, sistemli təşkilinə imkan verən büdcə təsnifatı, onun təyinatı, tərkibi, büdcə gəlirlərinin və xərclərinin təsnifləşdirilməsi qaydaları, təsnifləşdirmənin büdcənin idarə edilməsində rolu haqqında ətraflı bilgilər veriləcək | Novruzov N.A., İbrahimov Ə.İ., "Büdcə sistemi" dərslik, Bakı-2012 IV fəsail Bədəlov Ş.Ş., Məhərrəmov R.B., Qurbanov F.Ə., "Büdcə sistemi" dərslik, Bakı-2003 IV fəsil |
| 6 | Büdcə gəlirləri | Büdcə gəlirlərinin mahiyyəti və formaları, onların mənbələri, büdcə gəlirləri sistemi, onların tərkibi və quruluşu, habelə ayrı-ayrı gəlir formalarının büdcə gəlirlərinin formalaşmasında oynadığı rol haqqında ətraflı məlumat veriləcək | Novruzov N.A., İbrahimov Ə.İ., "Büdcə sistemi" dərslik, Bakı-2012 VII fəsil Bədəlov Ş.Ş., Məhərrəmov R.B., Qurbanov F.Ə., "Büdcə sistemi" dərslik, Bakı-2003 V fəsil |
| 7 | Büdcə təşkilatlarının xərclərinin planlaşdırılması və maliyyələşdirilməsinin əsasları | Büdcə xərclərinin mahiyyəti və formaları, büdcə xərcləri sistemi, büdcə xərclərinin planlaşdırılması üsulları, büdcədən maliyyələşmə anlayışı büdcədən maliyyələşmənin prinsipləri və formaları, smeta qaydasında maliyyələşmə, büdcə xərclərinin normaları haqqında zəruri məlumatlar veriləcək | Bədəlov Ş.Ş., Məhərrəmov R.B., Qurbanov F.Ə., "Büdcə sistemi" dərslik, Bakı-2003 XVII fəsil |
| 8 | Təhsil xərclərinin planlaşdırılması və maliyyələşdirilməsi | Bu mövzuda təhsil xərclərinin mahiyyəti, tərkibi və quruluşu, büdcədən təhsilə xərclərin planlaşdırılması və icrası məktəbəqədər və ali təhsilin maliyyələşdirməsi haqqında bilgilər izah ediləcək. | Novruzov N.A., İbrahimov Ə.İ., "Büdcə sistemi" dərslik, Bakı-2012 X fəsil Bədəlov Ş.Ş., Məhərrəmov R.B., Qurbanov F.Ə., "Büdcə sistemi" dərslik, Bakı-2003 XXII fəsil |
| 9 | Səhiyyə xərclərinin planlaşdırılması və maliyyələşdirilməsi | Səhiyyə xərclərinin sosial-iqtisadi mahiyyəti, səhiyyə xərclərinin maliyyələşdirilməsi prinsipləri və formaları, bu xərclərin planlaşdırılması və maliyyələşdirilməsi haqqında bilgilər veriləcəkdir. | Novruzov N.A., İbrahimov Ə.İ., "Büdcə sistemi" dərslik, Bakı-2012 X fəsil Bədəlov Ş.Ş., Məhərrəmov R.B., Qurbanov F.Ə., "Büdcə sistemi" dərslik, Bakı-2003 XXIII fəsil |
| 10 | Sosial sığorta və sosial təminat xərcləri | Bu mövzuda sosial sığorta və sosial təminatın sosial siyasətin təmin olunmasında rolu, mahiyyəti və formaları onların maliyyələşmə mənbələri bu sahədə aparılan islahatlar | Novruzov N.A., İbrahimov Ə.İ., "Büdcə sistemi" dərslik, Bakı-2012 X fəsil Bədəlov Ş.Ş., Məhərrəmov R.B., Qurbanov F.Ə., "Büdcə |

| | | | |
|---|---|---|---|
| | | | sistemi" dərslik, Bakı-2003 XXVI fəsil |
| 11 | Dövlətin idarəetmə və müdafiə xərcləri | Dövlətin idarəetmə xərclərinin mahiyyəti, tərkibi və quruluşu bu xərclərin planlaşdırılması və maliyyələşdirilməsi qaydaları | Novruzov N.A., İbrahimov Ə.İ., "Büdcə sistemi" dərslik, Bakı-2012 VIII fəsil Bədəlov Ş.Ş., Məhərrəmov R.B., Qurbanov F.Ə., "Büdcə sistemi" dərslik, Bakı-2003 XX fəsil |
| 12 | Dövlət büdcədənkənar fondları və məqsədli büdcə fondları | Dövlət büdcədənkənar pul fondlarının vahid büdcə sistemində yeri və rolu, büdcədənkənar fondların yaradılmasının zəruriliyi, DSMF və DNF. Bu fondların forlaşdırılması vı istifadəsi | Novruzov N.A., İbrahimov Ə.İ., "Büdcə sistemi" dərslik, Bakı-2012 XIII fəsil |
| 13 | Büdcə prosesinin təşkili | Büdcə prosesinin mahiyyəti və mərhələləri, hüquqi əsasları, büdcə layihəsinin tərtibi və baxılması büdcənin icrası, büdcənin icrasına nəzarət | Novruzov N.A., İbrahimov Ə.İ., "Büdcə sistemi" dərslik, Bakı-2012 XIV fəsil Bədəlov Ş.Ş., Məhərrəmov R.B., Qurbanov F.Ə., "Büdcə sistemi" dərslik, Bakı-2003 XXVII fəsil |
| 14 | Büdcənin icrasının təşkili | Büdcənin icrasının mahiyyəti, prinsipləri və mərhələləri. Büdcənin kassa icrasında Dövlət Xəzinədarlığının rolu. Büdcənin faktiki icrasının təşkili. | Novruzov N.A., İbrahimov Ə.İ., "Büdcə sistemi" dərslik, Bakı-2012 XIV fəsil Bədəlov Ş.Ş., Məhərrəmov R.B., Qurbanov F.Ə., "Büdcə sistemi" dərslik, Bakı-2003 XXVIII fəsil |
| 15 | Büdcənin icrasına maliyyə nəzarəti | Maliyyə nəzarətinin mahiyyəti və formaları. Büdcə nəzarəti. Büdcə nəzarətinin formaları Büdcə nəzarəti orqanları və onların funksiyaları. | Novruzov N.A., İbrahimov Ə.İ., "Büdcə sistemi" dərslik, Bakı-2012 XV fəsil Bədəlov Ş.Ş., Məhərrəmov R.B., Qurbanov F.Ə., "Büdcə sistemi" dərslik, Bakı-2003 XXIX fəsil |
| **Yekun imtahan:** | | | |

## XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;

2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə cıxarilan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə nəzərə alınır:

- 10 bal:5 bal
- 9 bal : 4,5 bal
- 8 bal :4baI
- 7 bal:3,5bal
- 6 bal:3 bal
- 5 bal :2,5 bal
- 4bal:2bal
- 3 bal : 1,5 bal
- 2bal: I bal
- I bal:0,5 bal

Seminar balları əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir.

B = (((bI +b2+b3+.".+bn)/s)*m)/l0

Burada, B - yekun aktivlik bah;
b - seminar dərslərində alınan müxtəlif ballar
s - semestr ərzində verilən cavabların sayı
m - aktivlik bahna aynlan maksimal bal;
l0 - bir seminar dərsində toplanan maksimal baldır.

Tələbə semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 bah toplamış olur. Bu halda nəticə sistemdə ((( 1 0+ 1 0+ 1 0+ 1 0)l 4)* 20)l 70 : 20 olaraq hesaba alınır. Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-ct,7-ci ve s. Cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında tələbəyə cavab verməsi imkanı yaradır.

**<u>XIII. Fənn üzrə kurs işi</u>**

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

**XIV. Fənn üzrə ara və aralıq qiymətləndirmə**

Ara qiymətləndirmə hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir

Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı tələbəyə 3 sual, aralıq qiymətləndirmə zamanı isə təhsilalanlara 5 sual təqdim olunur.

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirilir. Balların maksimum miqdarı – 100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır . Fənn üzrə tələbənin əldə edə biləcəyi yekun balın strukturu aşağıdakı cədvəldə təqdim edilib:

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| Aralıq qiymətləndirmə | 50 | 50% |
| Ara qiymətləndirmə | 30 | 30% |
| Auditoriya qiymətləndirməsi | 20 | 20% |
| **Cəmi:** | 100 | 100% |

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

| | | |
|---|---|---|
| 51 baldan aşağı olduqda | - “qeyri-kafi” | - F |
| 51-60 bal | - “qənaətbəxş” | - E |
| 61-70 bal | - “kafi” | - D |
| 71-80 bal | - “yaxşı” | - C |
| 81-90 bal | - “çox yaxşı” | - B |
| 91-100 bal | - “əla” | - A |

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi “qeyri-kafi” qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.